# QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏ

## *Real iqtisadiyyatın ənənəvi təsərrüfat sahələri operativ surətdə dirçəldilir və müasir inkişaf səviyyəsinə çatdırılması üçün siyasi və maddi dəstək verilir*

Bu gün bəşəriyyət çox ağır dövrlərindən birini yaşayır. İqtisadi tənəzzül, maliyyə böhranı, sosial problemlər, hərbi toqquşmalar, milli-dini dözülməzliklər baş alıb gedir. Belə bir mühitdə qarşılıqlı maraqların təmini ilə edilən əməkdaşlığın, birgəyaşayış, sülh, əmin-amanlıq və sosial-iqtisadi inkişaf üçün həyati əhəmiyyəti vardır. Bu cür münasibətlərin təməlində isə ölkənin dünya standartlarına uyğun hərtərəfli inkişaf etmiş çoxşaxəli iqtisadiyyatı əsas bazis kimi dayanır. Hərtərəfli inkişaf, sahələrin dominantlığına nail olunması, yüksək keyfiyyətli məhsuldar sənayeləşmə dövlətin həm daxili bazarının tələbatını ödəyir, həm də güclü ixrac potensialı yaradır. Bu amil milli-siyasi və iqtisadi təhlükəsizliyin də qarantıdır. Azərbaycan rəhbərliyi məhz bu yolla gedir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı prioritetdir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində ağır, gərgin beynəlxalq vəziyyət və bu şəraitdə ölkə iqtisadiyyatının bütün mövcud perspektivli iqtisadi sahələrinin, xüsusən kənd təsərrüfatının inkişafı sahəsində görüləcək işlər bir vəzifə kimi qarşıya qoyulmuşdur: "Sənaye potensialımız baxmayaraq ki, az artır – 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir". Real iqtisadiyyatın sahələri, xüsusən dünya bazarında daim tələbat duyulan ənənəvi təsərrüfatlar operativ surətdə dirçəldilir və müasir inkişaf səviyyəsinə çatdırılması üçün siyasi və maddi dəstək verilir. Aydındır ki, iqtisadi sahələrin inkişafı üçün onların tələbini ödəyə biləcək infrastruktur lazımdır. Azərbaycan dövlət rəhbərliyi bu istiqamətdə bütün zəruri məsələləri həll edib. Prezident İlham Əliyev Sabirabadda keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsində bu barədə deyib: "...inkişaf şərtləndirən əsas amillər infrastrukturla bağlıdır. Məhz buna görə 2004-cü ildən başlayaraq bölgələrdə genişmiqyaslı infastruktur layihələri icra olundu. Bu gün Azərbaycan bütün bölgələrdə elektrik, qaz, içməli su ilə təmin edilir. Əgər 2003-cü ildə elektrik enerjisi və qaz xaricdən ixrac edilirdisə, bu gün biz elektrik enerjisini ixrac edirik. Son illər ərzində Azərbaycanda tikilmiş elektrik stansiyaları nəinki tələbatımızı ödəyir, hətta ixrac potensialı da yaradır. Həmçinin qaz sahəsində də bu gün Azərbaycan həm regionda, həm gələcəkdə dünyada, Avropada çox önəmli qaz hasil və ixrac edən ölkəyə çevrilir".

Bu gün dünya iqtisadiyyatında aqrar sahəyə diqqət getdikcə artır. Xüsusən də müxtəlif xarakterli kataklizmlər artdıqca sosial problemlərin çoxalmasına insanın sağlamlığı və normal qidalanması üçün təbii məhsullarla ehtiyacın ödənməsinə tələbat sürətlə yüksəlir. Azərbaycanda iqtisadi sahədəki siyasətdə bu istiqamət demək olar ki, prioritetdir. Misal üçün, Azərbaycanın Rusiyaya ixrac etdiyi kənd təsərrüfatı məhsullarının həcmi daim artır, ölkəmizdə yetişmiş pomidor öz dadı və keyfiyyəti ilə seçilir, orada ona yüksək tələbat vardır.

Kənd təsərrüfatının inkişafında da inkişaf və nöqsanlar daim diqqətdədir. Məhz ən yüksək səviyyədə — dövlət başçısı səviyyəsində problemlər həll edilir. İş ondadır ki, dövlət fermerlərə siyasi və maddi dəstək verir, güzəştlər edir, lakin inkişafı prioritet elan olunmuş sahələr bəziləri tənəzzüldədir. Dövlət rəhbəri bu barədə deyib: "Son illər ərzində sahibkarlara müxtəlif layihələri icra etmək üçün 1 milyard manatdan çox məbləğdə güzəştli kreditlər verilmişdir. Ancaq pambıqçılığın tənəzzülə uğraması göstərir ki, dövlət mütləq bu işlərə müdaxilə etməlidir".

Bu gün beynəlxalq iqtisadi proseslərə diqqət edəndə aşkar görünür ki, dövlətin ciddi nəzarəti olan ölkələrdə iqtisadiyyat inkişaf edir və dinamikliyini qoruyur. Çünki iqtisadiyyatın dinamik innovativ inkişafı siyasi və iqtisadi müstəqilliyin ən əsas amilidir. Avropa və Asiyanın sərhədində, iki nəhəng sivilizasiyaların qovşağında yerləşən ölkəmiz bu geosiyasi məkanda hər iki qitənin həm də siyasi, iqtisadi və sosial sahələrinin qovşağı, təmas nöqtəsidir. Bu amil bizə müəyyən dividendlər versə də təhlükələri də ortalığa qoyub. Bunun ən bariz göstəricisi Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına ikili standartlarla yanaşılması, birmənalı olaraq neofaşizm yolunu tutmuş bu terrorçu dövlətin böyük siyasi qüvvələr tərəfindən qınanmamasıdır. Buna görə də Azərbaycan daha da güclü olmalıdır. Bu gücü isə ona ixracyönümlü qüdrətli iqtisadiyyat verə bilər. Həmin xarakterli iqtisadiyyat isə çoxşaxəli və sahələri dünya bazarlarının tələbini ödəyən, çoxcəşidli ixrac məhsulları istehsal edən təsərrüfatlara malik olmalıdır. Müasir vəziyyət belədir ki, zaman gözləmir, ölkəmizin yerləşdiyi region gərginlik içindədir. Hazırkı şəraitdə iqtisadi müstəqilliyə nail olmaq siyasi müstəqilliyin güclü təməlini yaradır. Buna görə də dinamik inkişaf edən, yüksək templi beynəlxalq səviyyəli istehsalat sahələri yaratmaq və geniş ixrac bazarları əldə etmək həm sosial rifah, dostluq, əməkdaşlıq, strateji partnyorluq, həm də sülh və əmin-amanlıq deməkdir. Azərbaycan bazar iqtisadiyyatı formasiyasındadır. Bəzən deyirlər ki, bu sistem özünü tənzimləmə xarakterlidir. Lakin təcrübə göstərir ki, dövlətin yönəltməsi, müdaxiləsi nəzarəti siyasi, maddi dəstəyi olmasa bu ifadə özünü doğrultmur. Ölkə Prezidenti pambıqçılığın inkişafına dair respublika müşavirəsində bu haqda deyib: "Bazar iqtisadiyyatı heç də o demək deyil ki, hər şey yolunda olacaq. Pambıqçılığın tənəzzülə uğraması bunun bariz nümunəsidir. Ona görə, qərar qəbul edildi ki, bu gün hər halda ki ərzaq məhsulları və ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin böyük əksəriyyəti öz həllini tapıb və artıq icrada olan layihələr yaxın zamanlarda öz bəhrəsini verəcək, indi dövlət kənd təsərrüfatının inkişafına həm daha da güclü dəstək verməlidir, həm də bu sahəyə daha da böyük miqyasda müdaxilə etməlidir. O mənada müdaxilə etməlidir ki, biz fermerlərə kömək göstərək, onların problemlərini həll edək və ölkəmizdə ənənəvi olan, ancaq əfsuslar ki, tənəzzülə uğrayan sahələri bərpa edək və inkişaf etdirək". Zaman-zaman ölkəmizdə intişar tapmış, güclü sosial bazaya malik, təcrübə toplanmış ənənəvi təsərrüfat sahələrinin məhsullarına nəinki təkcə daxili bazarda, həm də beynəlxalq bazarlarda böyük ehtiyac vardır. Pambıqçılığın, tütünçülüyün, baramaçılığın, heyvandarlığın və s. inkişafı ölkəmizin hərtərəfli tərəqqisində, məşğulluğun həll edilməsində yeni mühüm bir mərhələdir. Əgər biz aqrar sahənin, turizm, ağır, yüngül, yeyinti və emal sənayelərinin, informasiya-kommunikasiya texnologiyalarının da inkişafını, bölgələrimizdə güclü sənaye zonalarının yaradılmasına göstərilən dəstəyi də əlavə etsək ölkəmizdə gedən tərəqqi prosesinin həcmini təsəvvür edə bilərik. Xüsusilə qeyd edək ki, xam neftin emalı sahəsində görülən işlər olduqca önəmlidir. Neft sənayesinin bərpası və dünya standartları səviyyəsinə çatdırılması iqtisadi inkişafa yeni dinamizm verir.



Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursda bu amillər gələcəyi proqnozlaşdırılaraq çox böyük uğurla nəzərə alınmışdır. Bundan başqa, Asiya güclü inkişaf yolundadır. Hər iki qitə bazarlarının bir-birinə inteqrasiyasının dövlətlərin sosial-iqtisadi inkişafında mühüm rol oynaması bu gün daha da artıq özünü büruzə verməkdədir. Qitələrin təmas xəttində yerləşən Azərbaycan bu ehtiyacın ödənilməsi üçün həm tranzit ölkə, həm də siyasi əməkdaşlıq körpüsü, sabitliyin, səmərəli qarşılıqlı əlaqələrin təminatçısı və vasitəçisi kimi çıxış edir. Buraya zəngin karbohidrogen ehtiyatlarını da əlavə etsək Azərbaycanın həmin inkişaf etmiş ölkələr üçün nə qədər böyük əhəmiyyət daşıdığını təsəvvür edə bilərik.

Dövlət başçısı ölkəsini düşünülmüş siyasətlə və proqnozlaşdırılmış proqramlarla irəliyə aparır. Təsadüfi deyil ki, Ümumdünya Davos İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətəqabiliyyətliliyinə görə artıq 37-ci yerdədir, ötən il 40-cı yerdə idi. Ölkəmizdəki nəhəng quruculuq işlərini və davamlı tərəqqini müşahidə edərkən qarşıya qoyulan məqsədə çatılacağına heç bir şübhə yeri qalmır. Bu davamlı innovativ tərəqqinin nəticəsidir ki, Azərbaycan artıq beynəlxalq əməkdaşlıqda dünyanın qeyri-ənənəvi olan bölgələri üçün də cəlbedici və önəmli ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində iqtisadiyyatın yeni mərhələdə inkişafı üçün bütün məsələlərin xalqın dəstəyilə, əzmlə və uğurla həll ediləcəyi barədə deyib: "Bir sözlə, artıq 2016-cı il sona yaxınlaşır. Qeyd etdiyim kimi, bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son üç ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz aydındır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**